AZƏRBAYCAN KREDİT BANKI

«Azərbaycan Kredit Bankı» ASC-nin
Səhmdarlarının Ümumi Yığıncağının
"18" yanvar 2008-ci il tarixli
iclasında təsdiq edilmişdir.

Protokol № 01

Iclasın Sədri R.B.Şirinov

# MÜŞAHİDƏ ŞURASININ
# ƏSASNAMƏSİ

**BAKI-2008**

## 1. Ümumi müddəalar

Bu Əsasnamə Azərbaycan Respublikası Qanunvericiliyinin və «Azərbaycan Kredit Bankı» Açıq Səhmdar Cəmiyyətinin (irəlidə «Bank» adlanacaq) Nizamnaməsinin müddəaları əsasında tərtib edilmişdir.

Bankın Müşahidə Şurası (irəlidə «Şura» adlanacaq) Bankın idarə olunmasına və işinə nəzarəti həyata keçirən və icra səlahiyyətlərinə malik olmayan idarəetmə orqanıdır.

## 2. Şuranın tərkibi, seçilməsi və səlahiyyət müddəti

Şura Bankın Səhmdarlarının Ümumi Yığıncağı tərəfindən 4 il müddətinə təyin edilən 3 üzvdən ibarətdir.

Şuranın üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

Səhmdarların Ümumi Yığıncağı Şuranın üzvləri sırasından Şuranın sədrini təyin edir.

Şuranın tərkibi 5 nəfərə qədər və daha çox artırıldıqda, otuz təqvim günü ərzində Bankın növbədənkənar Ümumi Yığıncağı çağırılaraq Şuraya yeni üzvlər seçilir.

Şura üzvlərinin muzdu Bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında səhmdarların Ümumi Yığıncağında təyin edilə bilər.

Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunan tələblərə cavab verməyən şəxslər Şura üzvü ola bilməzlər. Həmin şəxslər səhmdarların Ümumi Yığıncağının qərarı ilə Şura üzvləri vəzifəsindən azad edilməlidirlər. Şuranın və ya onun üzvünün səlahiyyətinə digər səbəblərə görə vaxtından əvvəl xitam verilməsi Ümumi Yığıncağın qərarı ilə həyata keçirilə bilər.

Səhmdarların Ümumi Yığıncağının keçirilməsi üçün təşkilati məsələlərlə məşğul olan vəzifəli şəxs (Korporativ Katib) ümumi yığıncağın gündəliyinin layihəsi ilə birlikdə Müşahidə Şurasının üzvlərinin (üzvünün) seçilməsi və Müşahidə Şurasına namizədlərin təqdim edilməsi qaydası barədə məlumatları səhmdarlara göndərir. Növbəti 10 (on) iş günü ərzində Bankın səhmdarlarından Müşahidə Şurasına namizədliklər qəbul edilir.

Müşahidə Şurasına namizəd irəli sürülərkən həmin namizədi irəli sürmüş səhmdar və ya səhmdarlar tərəfindən aşağıdakı məlumatlar təqdim edilməlidir:

Təklif olunan şəxsin adı, soyadı və atasının adı;

Namizədi təklif edən səhmdarın adı, soyadı və atasının adı;

Namizədin təhsili barədə məlumat;

Son 5 il ərzində namizədin tutduğu vəzifələr;

Namizədin məhkumluğunun olub - olmaması barədə məlumat;

Namizədin digər hüquqi şəxslərdə payları barədə məlumat;

Səhmdarların Ümumi Yığıncağına ən azı 45 təqvim günü qalmış bütün namizədlər barədə yuxarıda qeyd olunan məlumatlar gündəliklə birlikdə səhmdarlara çatdırılır.

Səhmdarların Ümumi Yiğincağinda səsvermənin nəticələri təsdiq olunduğu tarixdən Müşahidə Şurasının yeni seçilmiş üzvü və ya üzvləri öz səlahiyyətlərini əldə edirlər.

## 3. Şuranın səlahiyyətləri

3.1 Şuranın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

3.1.1 Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən Bankın İdarə Heyətindən hesabatlar almaq;

3.1.2 Səhmdarların Ümumi Yığıncağı və İdarə Heyəti üçün tövsiyələr vermək;

3.1.3 Səhmdarların Ümumi Yığıncağının hər bir iclasını bildirişlər göndərmək yolu ilə çağırmaq və səhmdarların, habelə Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə və onların gündəliyi üzrə keçirilən növbədənkənar iclaslar istisna olmaqla, hər bir iclasın gündəliyini qəbul etmək;

3.1.4 Bank tərəfindən qüvvədə olan qanunvericiliyin pozulması faktını müəyyən etdikdə, bu pozuntu barəsində səhmdarların Ümumi Yığıncağını, Audit Komitəsini və İdarə Heyətini xəbərdar etmək, Milli Banka isə bank qanunvericiliyinin pozulması faktları barədə bildiriş göndərmək;

3.1.5 Qanunvericiliyə uyğun olaraq, İdarə Heyəti üzvlərini vəzifədən kənarlaşdırmaq, Səhmdarların Ümumi Yığıncağında təsdiq edilənədək onları müvəqqəti olaraq, qanunvericiliklə müəyyən olunan tələblərə cavab verən başqa şəxslərlə əvəz etmək;

3.1.6 Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda bankı idarə və təmsil etmək;

3.1.7 Kənar və daxili auditorların, habelə Milli Bankın yoxlamalarının nəticələrini nəzərdən keçirmək və bu yoxlamaların yekunlarına dair tədbirlər görmək;

3.1.8 Bankın etibarlı və prudensial idarə olunmasını təmin etmək üçün zəruri olan qaydaları və daxili əsasnamələri qəbul etmək;

3.1.9 Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərarlar qəbul etmək;

3.1.10 Bankın Nizamnamə kapitalının 50 (əlli) faizindən artıq məbləğdə və bankın nizamnaməsində nəzərdə tutulmuş hallarda Bank adından müvafiq əqdlərin bağlanmasına icazə vermək;

3.1.11 Banka aidiyyatı şəxslər və aidiyyatı şəxs adından hərəkət edən şəxslər ilə əqdlər bağlanmasını təsdiq etmək;

3.1.12 Qanunvericiliyə uyğun olaraq, Bankın Nizamnaməsi və Milli Bankın normativ xarakterli aktları ilə nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

3.2 Şura bu Əsasnamənin 3.1.6-cı bəndində nəzərdə tutulan səlahiyyətini icra etməzdən əvvəl Milli Banka əsasları göstərməklə yazılı bildiriş göndərir və səhmdarların Ümumi Yığıncağının növbədənkənar iclasını çağırır.

3.3 Şuranın bu Əsasnamənin 3.1.5-ci və 3.1.6-cı bəndlərinə əsasən qəbul etdiyi qərarlar səhmdarların Ümumi Yığıncağının növbəti iclasının gündəliyinə daxil edilməlidir.

## 4. Müşahidə Şurasının sədri

4.1 Müşahidə Şurasının sədri Şuranın işinə rəhbərlik edir, iclaslarını çağırır və iclaslarda sədrlik edir, o cümlədən Şuranın səlahiyyətinə aid olan sənədləri imzalayır.

4.2 Şuranın sədri iclasin gündəliyi barədə Şuranın hər üzvünə iclasın başlanmasına ən geci 3 gün qalmış yazılı bildirişin çatdırılmasını təmin edir. Bildiriş kuryer, poçt, faks və ya elektron poçt vasitəsilə göndərilə bilər.

4.3 Şuranın sədri növbədənkənar iclasın keçirilməsi ilə bağlı təklifi aldıqda iki gündən gec olmayaraq bu Əsasnamənin 4.2-ci bəndində göstərilən üsullardan

biri ilə Şura üzvlərinə iclasın gündəliyi, yeri və vaxtı barədə bildirişin göndərilməsini təmin edir.

4.4 Şuranın sədri üzürlü səbəblərə görə vəzifəsini yerinə yetirə bilmirsə, onun səlahiyyətlərini Şura üzvlərinin razılığı ilə üzvlərdən biri yerinə yetirir. Bu zaman Mili Bank tərəfindən müəyyən edilən tələblər gözlənilməlidir.

## 5. Şuranın iclaslarının keçirilməsi

5.1 Şuranın iclasları ayda bir dəfə keçirilir.

5.2 Şuranın iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir.

5.3 Müşahidə Şurasının üzvləri iclaslarda şəxsən iştirak edirlər. Şuranın və onun üzvlərinin öz vəzifələrini başqalarına həvalə etmək hüququ yoxdur.

5.4 Müşahidə Şurasının iclasları video və ya telefon konfransı vasitəsilə aparıla bilərlər. Müşahidə Şurasının iclasında video və ya telefon konfransı vasitəsilə iştirak etmiş Müşahidə Şurasının üzvü iclasda şəxsən iştirak etmiş sayılır.

5.5 Şuranın qərarları iclasda iştirak edən üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Hər bir üzv bir səs hüququna malikdir. Üzvlərin səsvermə zamanı bitərəf qalmasına icazə verilmir. Səslər bərabər olduqda Şura sədrinin səsi həlledici sayılır.

5.6 Bankın Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə istənilən əməkdaşları Müşahidə Şurasının iclaslarına dəvət oluna bilərlər.

5.7 İclasda gündəlikdə göstərilən məsələlər müzakirə edilir. Gündəliyə Şuranın, Audit Komitəsinin, İdarə Heyətinin üzvləri, habelə səhmlərin 5 (beş) faizinə malik olan səhmdarlar tərəfindən təklif edilən məsələlər daxil edilə bilər.

5.8 Növbəti islasın ehtimal olunan yeri və vaxtı Şuranın cari iclasında müəyyən edilir. Əgər iclasın keçirilmə yeri və vaxtı dəyişərsə, Şuranın üzvlərinə iclasın başlanması gününə ən geci üç gün qalmış əlavə olaraq məlumat verilir. Məlumat şifahi yolla verilə bilər.

5.9 Şuranın növbədənkənar iclasları Şuranın sədri və ya aşağıdakı şəxslərin təşəbbüsü ilə çağırılır:

- Şuranın üzvü
- Audit Komitəsinin üzvü

- İdarə Heyətinin üzvü
- Bank səhmlərinin azı 5 (beş) faizinə sahib olan səhmdar tərəfindən.

5.10 İclasın keçirilməsi barədə tələb iclasın təşəbbüskarı tərəfindən, yazılı surətdə Şuranın sədrinə təqdim olunur. İclasının keçirilməsi barədə tələbə iclasın təklif olunan gündəliyi əlavə olunur.

## 6. Şura iclaslarının protokolu və stenoqramması

6.1 Şuranın iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol Şuranın sədri və katibi tərəfindən imzalanır.

6.2 Protokolda aşağıdakılar göstərilir:

6.2.1 İclasın keçirilmə vaxtı və yeri;

6.2.2 İclasın gündəliyi;

6.2.3 İştirak edən üzvlərin siyahısı;

6.2.4 Çıxışların xülasəsi;

6.2.5 Səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;

6.2.6 Şura tərəfindən qəbul edilmiş qərarların dəqiq və səlis ifadə olunmuş mətni;

6.2.7 İclasın video və ya telefon konfransı vasitəsilə keçirilməsi barədə qeyd.

6.3 İmzalanmış protokolun surəti bir gün ərzində bütün Müşahidə Şurası üzvlərinə göndərilir.

## 7. Müşahidə Şurasının və onun üzvlərinin öhdəlikləri və məsuliyyəti

7.1 Şuranın üzvləri səhmdarlar və bank qarşısında fidusiar öhdəliklər daşıyırlar. Fidusiar öhdəliklər bunlarla məhdudlaşmayaraq, aşağıdakıları əhatə edir:

7.1.1 Bankın və onun səhmdarlarının mənafelərinə sadiq olmaq öhdəliyi;

7.1.2 Bankın və səhmdarların maraqlarını öz maraqlarından üstün tutmaq öhdəliyi;

7.1.3 Qərarlar qəbul edilərkən ehtiyyatlı və düşünülmüş qaydada hərəkət etmək öhdəliyi;

7.1.4 Maraqların toqquşmasına dair qanunvericiliyin və Bankın daxili qaydalarındakı tələblərə uyğun olmaq öhdəliyi;

7.1.5 Bankda öz vəzifələrinin yetirilməsi ilə bağlı onlara məlum olmuş məlumatları üçüncü şəxslərə açıqlamamaq və öz şəxsi və üçüncü şəxslərin mənafeləri üçün istifadə etməmək öhdəliyi.

7.2 Bankın idarə olunmasına və işinə nəzarətin həyata keçirilməsi ilə əlaqədar qəbul olunmuş qərarlara görə Müşahidə Şurasının üzvləri məsuliyyət daşıyırlar.